# VII sinif şagirdlərində "Azərbaycan erkən orta əsrlər dövrü" mənbələri ilə işin təşkilində tədqiqatçılıq bacarıqlarının formalaşdırılması

**Lilpar Məzahir qızı Qasımova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** lilparlilpar@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. İ.H. Cəbrayılov,
p.ü.f.d. T.M. İsayeva

**Açar sözlər:** təlim prosesi, şagirdlər, mənəvi tərbiyə, tarixi mənbələr
**Ключевые слова:** процесс обучения, ученик, духовное воспитание, исторические источники
**Key words:** learning process, students, moral education, historical sources

Peşəsindən asılı olmayaraq hər bir vətəndaş öz ölkəsinin tarixinə dərindən yiyələnməlidir. Bu sahədə tarix müəllimlərinin üzərinə böyük məsuliyyət düşür. Tarix müəllimin ilk vəzifəsi yüksək elmi dünyagörüşünə malik, soy – kökünü, tarixi keçmişini, milli və ümumbəşəri dəyərləri dərindən mənimsəyən vətəndaş formalaşadırmaqdır. Bu şərəfli vəzifəni yerinə yetirmək üçün şagirdləri ölkəmizin tarixi ilə yaxından tanış etməliyik. Humanitar elmlərlə bağlı bugunkü tələblər ali məktəbin işinin, elmi işlərin bütünlüklə yenidən qurulması, ümumiyyətlə, mütəxəssis hazırlanmasının köklü şəkildə yaxşılaşdırılması ilə bağlıdır. Bu baxımdan gənc mütəxəssislərin elmi təfəkkürü və dünyagörüşünün yüksəldilməsi, onlara mənbələr və ədəbiyyat üzərində müstəqil yaradıcı iş apamağın öyrədilməsi başlıca vəzifə olaraq qalır.

Aparılan çoxsaylı təcrübələr göstərir ki, mühazirələrin problem səciyyədə, yəni keyfiyyətcə yenidən qurulması ilə yanaşı, praktiki məşğələlərin metodikası kökündən yaxşılaşdırılmalı, ilk növbədə mənbələr üzərində yaradıcı iş aparmaq vərdişi aşılanmalıdır. Tarix müəllimi ilk növbədə, tarixin müxtəlif zaman kəsiyində baş vermiş hadisə və prosesləri tədris edərkən mənbələrə müraciət etməlidir. İstifadə olunan mənbələrin özü ilə onlardan istifadə qaydaları fərqləndirilməldir.

1. Mənbələrin mahiyyəti
2. Mənbələrdən istifadənin mahiyyəti (metodikası)

Mənbələrin mahiyyəti dedikdə, onların əks etdirdiyi məlumata əsasən fərqləndirilməsi, Azərbaycan tarixinin öyrənilməsində hansı rola malik olması, nə kimi, tarixi hadisə və prosesləri özündə ehtiva etdirməsi başa düşülür. Mənbələrdən istifadənin metodları dedikdə isə, onları təhlil edərkən istifadə olunan metodlar, mənbələrdən istifadə zamanı işlədilən təlimin forma və üsullarının tətbiqi nəzərdə tutulur. Müəllim ilk əvvəl Azərbaycan tarixi fənninin tədrisində hansı mənbələrdən istifadə etməlidir, onları müəyyənləşdirir. Bildiyimiz kimi, Azərbaycan dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biridir. Tarixin müxtəlif pillələrində buranın sakinləri zəngin mədəni irs yaratmışdılar. Bu irs tarixi mənbələr əsasında öyrənilir. Tarixi mənbələr iki yerə bölünür.

1. Arxeoloji (maddi) mənbələr
2. Yazılı mənbələr

Maddi mənbələr arxeologiya elmi vasitəsilə öyrənilir. Tarixi yalnız arxeoloji mənbələr əsasında tədris etmək mümkün deyildir. Bu baxımdan tarixin öyrənilməsində yazılı mənbələr

xüsusi əhəmiyyətə malikdir. Əgər biz ibtidai icma quruluşunu arxeoloji halda tapılmış materiallar əsasında tədris ediriksə, orta əsrlər dövrü əsasən yazılı mənbələr əsasında tədris olunur. Bu baxımdan yazılı mənbələrin özləri də, sənədli və nəqli xarakterli mənbələr olmaq üzrə iki qrupa bölünür. Bunların hər biri Azərbaycanın erkən orta əsrlər dövrünün öyrənilməsində əvəzedilməz rola malikdir. Bildiyimiz, kimi erkən orta əsrlər dövründə Azərbaycan bir sıra dövlətlərin təsir dairəsinə düşmüş məhz buna görə də, bu dövrə aid mənbələr öz müxtəlifliyi ilə seçilir. Tarixin bu zaman intervalına aid səhifələrini vərəqlədikcə sözsüz ki, mübahisəli məsələlərə rast gəlinir. Bunun səbəbi, bu dövrün tədrisində yerli mənbələrlə yanaşı, Bizans, farsdilli, ərəbdilli və gürcüdilli mənbələrdən istifadə olunmasıdır. Müasir dövrdə bu mənbələrdən istifadə olunaraq bir sıra sanballı kitablar yazılmışdır. Z. Bünyadov "Azərbaycan VII – IX əsrlərdə" əsərində müxtəlif dilli mənbələrin təsnifatını vermiş, S. Əliyarlının "Azərbaycan tarixi üzrə qaynaqlar" əsəri tamamilə bu problemə həsr olunmuşdur. S.Əliyarlı göstərir ki, bu dövrə aid əsas yerli mənbələr M.Kalankatlının "Alban tarixi", F. Rəşidəddinin "Cami ət – təvarix" əsəri və "Kitabi Dədə Qorqud" dastanıdır. IV–XII yüzillikləri əhatə edən erkən orta əsr mənbələrini isə yerli və ərəbdilli mənbələr olmaqla iki hissəyə ayırmışdır. Ərəbdilli mənbələr demək olar ki, hər bir müəllifdə eynidir. Z. Bünyadov öz əsərində, Əl – İstəxri, Əl – Bəlazuri, Əl – Məsudi kimi ərəb müəlliflərlə yanaşı, M. Kalankatlının "Alban tarixi", Gevondun "Tarix", Vardanın "Ümumi tarix", Stepannos Orbelianinin "Sünik tarixi", Mixitar Ayrivantsinin "Xronoqrafik tarix" kimi əsərlərindən, "Kartlis Tsxovreba" gürcü külliyyatından istifadə etmiş həmçinin onların qısa xülasəsini vermişdir.

Təlim prosesinin əsasında müəllim və şagirdlərin qarşılıqlı fəaliyyəti dayanır. Tarix təlimində istifadə edilən metodlar öz müxtəlifliyi ilə seçilir. Müəllim mənbələrlə işləmək metodikasına dərindən yiyələnməlidir. Şagirdlərin yaş dövrünə uyğun olaraq qavrama qabiliyyətləri fərqli olur. Bu cəhəti nəzərə alaraq müəllim istinad yeri kimi dərsliyi əsas götürməli və ondan kənara çıxmamalıdır. Müəllim mənbələrlə işləyən zaman hansı metodlardan, interaktiv təlimin hansı forma və üsullarından istifadə etməlidir, onlara nəzər salaq.

Müəllim bu dövrü tədris edərkən ilk növbədə həm ənənəvi həm də, interaktiv təlimdə istifadə olunan şifahi şərh metodundan istifadə edərək şagirdlərdə, o dövrdə baş verən sosial – iqtisadi və siyasi proseslər haqqında müəyyən təsəvvür formalaşdırır. Bunu nümunələr əsasında tətbiq edək:

Nümunə 1. Məsələn ərəblərin köçürmə siyasətinin səbəbini izah edərkən VII sinif Azərbaycan tarixi dərsliyindən, Əl-İstəxrinin əsərindən salınmış bir hissəni şərhinə daxil edir. "Köçürmə siyasətinin əsas məqsədi hərbi-strateji əhəmiyyəti olan bölgələrdə və qalalarda Xilafətin hakimiyyətini möhkəmləndirmək, etnik dayaq yaratmaq, Xəzər xaqanlığının hücumlarının qarşısını almaq üçün sərhədlərin mühafizəsini yaxşılaşdırmaq idi. Təsadüfi deyil ki, Qafqazda ən çox ərəb ailəsi yerləşdirilən bölgə Azərbaycanın Xəzəryanı bölgələri, xüsusən də Dərbənd və onun ətrafı idi. Ərəb müəllifi əl-İstəxri ərəblərin Dərbəndə köçürülməsi səbəbləri haqqında yazmışdır: «Orada (Dər bənddə) yaşayan adamlara tapşırılmışdı ki, xəzərlərin islam torpaqlarına keçə biləcəyi yolları qorusunlar». Ona görə də yalnız VIII əsrin sonunda, Ərəb–Xəzər müharibələri tam başa çatdıqdan sonra ərəblərin Azərbaycana köçürülməsi dayandırıldı" (1, s. 18).

Nümunə 2. Ərəb işğalına qarşı mübarizə. Cavanşir mövzusunu tədris edərkən Cavanşiri təsvir etmək üçün dərslikdən bir hissəni şərhinə daxil edir. "Musa Kalankatlı Cavanşir haqqında yazır: "O, bütün gecələri yuxusuz keçirir, vətənin xeyri barədə fikirləşirdi, Cavanşir paytaxt Bərdəni abadlaşdırdı, saraylar tikdirdi. Alimləri, şairləri, sənətkarları himayə etdi. O mərkəzi hakimiyyəti möhkəmləndirir, müstəqilliyə can atan iri feodal əyanlarına qarşı müba-

rizə aparırdı" (1, s. 15).

Şifahi şərhin təsvir formasından istifadə etmək üçün, müəllim yüksək obrazlıq, inandırıcılıq keyfiyyətlərinə malik olmalı, bədən dilindən maksimum dərəcədə istifadə etməlidir. Təsvir informasiya-neytral, obyektiv ola bilər yaxud özündə məqsədyönlü ideya-əxlaqi keyfiyyətləri daşıya bilər. VII sinifdə Azərbaycan tarixi kursunda, Babəkin başçılığı altında Azərbaycanda azadlıq mübarizəsi mövzusunun tədrisində - Babəkin edam edilməsinin təsvirinin nümunəsinə diqqət yetirək: Xəlifə Mötəsimin əmri ilə Babək 838-ci il martın 14-də edam edildi. Edam zamanı onun göstərdiyi fiziki dözüm bu hadisəni görənləri və eşidənləri heyrətə gətirirdi. Xəlifənin göstərişi ilə cəllad əvvəlcə onun dirsəkdən qollarını, qıçlarını, sonra isə başını kəsdi. İşgəncə zamanı cəllad kötüyünə yaxın məsafədə dayanan adamlar da onun iniltisini eşitmədilər. Hadisəni görmüş ərəb müəllifi yazırdı: «Xəlifə cəllada əmr etdi ki, onun gözləri qarşısında Babəkin əllərini və ayaqlarını kəssin. Cəllad, əvvəlcə, Babəkin biləkdən sağ əlini kəsdi. Qan axanda Babək sol əli ilə bütün üzünü qana boyadı. Xəlifə ondan niyə belə etdiyinin səbəbini soruşduqda Babək xəlifəyə bildirdi: Sən əmr etdin məni şaqqalasınlar, mənim edamım üçün sən vicdanınla cavab verəcəksən... Məndən axan qanı dayandırmağa sənin hökmün çatmaz. Qorxuram ki, bütün qanım axıb qurtarsın və üzümün rəngi qaçsın. Adamlar da elə başa düşərlər ki, mən əvvəldən ölümdən qorxmuşam. Mən üzümü qana boyadım ki, bənizim solğun görünməsin». Xəlifənin əmri ilə edam davam etdirildi. Cəllad Babəkin əllərini və ayaqlarını kəsdikdən sonra başını vurdu. Üsyançıları qorxutmaq üçün onun kəsilmiş başını Xorasana göndərdi. Bədənini isə hündür bir ağacdan asdırdı. Bu qayda ilə Babəkin qardaşı Abdullanı da Bağdad şəhərində edam etdilər" (3, s. 259). Şərh olunan təsvir nümunəsi şagirdlərdə qorxmazlıq, cəsarətlilik, mərdlik hisslərinin formalaşmasında xüsusi əhəmiyyətə malikdir.

Əgər tarixi əsərdən müəllim bir hissəni öz şərhinə daxil edirsə, sənədli mənbələrlə işləmək bir qədər fərqlidir. Belə ki, şagirdlər sənədli mənbələrlə dərs prosesində, müəllimin köməkliyi, müəllim rəhbərliyi altında və ev şəraitində müstəqil işəyirlər. Tarixin tədris olunmasında bədii ədəbiyyat nümunləri xüsusi əhəmiyyətə malikdir. Tarix dərsi üçün bədii ədəbiyyat seçəndə müəllim iki əsas cəhəti rəhbər tutmalıdır. Hər şeydən əvvəl, materialın tarixi hadisələri tarixi həqiqətə və onun inkişaf qanunlarına uyğun şəkildə düzgün izah etməkdən və işıqlandırmaqdan ibarət olan idrak - tərbiyəvi əhəmiyyətinə əsaslanmalıdır (3, s. 324). Erkən orta əsrlər dövrünü tədris edərkən "Kitabi-Dədə-Qorqud" dastanı ən əsas bədii ədəbiyyat nümunəsi kimi istifadə edilməlidir. Müəllim tədris prosesində dastandan bir hissəni şərhinə daxil edir, yaxud rollu oyunlar və müzakirələr metodlarından istifadə edərək şagirdlərdə vətənpərvərlik tərbiyəsi formalaşdırır. Əgər tədris şəraiti imkan verirsə müəllim əyanilik metodlarından istifadə edərək, "Kitabı-Dədə-Qorqud" filmindən bir fraqmenti yaxud tədris şəkillərini dərs prosesinə daxil edir. Tarixin öyrənilməsində arxeoloji yaxud yerüstü şəkildə tədqiq edilən maddi mədəniyyət abidələri xüsusi əhəmiyyətə malikdir. Erkən orta əsrlər dövrünə aid məişət əşyaları, silah nümunələri, pul növləri haqqında şagirdlərdə təsəvvür formalaşdırmaq üçün illisturasiyalardan istifadə edilməli yaxud tədris şəraiti imkan verirsə numizmatika, arxeologiya və etnoqrafiya muzeylərinə tədris ekskursiyası təşkil etməklə o dövrün ticarət, məişət həyatı haqqında müəyyən fikir formalaşdırmaq mümkündür. Şagirdlərdə analizetmə və sintezetmə qabiliyyətlərini formalaşdırmaq üçün tədris prosesində memarlıq abidələri üzrə tədris şəkillərini əyani təsvir vasitəsi kimi istifadə etmək məqsədəuyğundur. Müəllim erkən orta əsrlər dövrünə aid Cavanşir qalası, Torpaqqala, Govurqala, Alban məbədləri, Çarabkert, Tərtər çayı üzərində körpü, Qazaxda Əskipara monastırı kimi tikililərin illüstrasiyasını tədris prosesinə daxil etməklə şagirdlərdə analiz, sintez, mücərrədləşdirmə, ümumiləşdirmə kimi idraki bacarıqları inkişaf etdirir. Müəllim nümunə əsasında fikrini aşağıdakı formada çatdırır: Erkən orta

əsrlərin ilk mərhələsində dini tikililərin fərqli formada, ərəb işğalından sonra başqa üslubda tikilməsi şagirdlərdə Azərbaycanın yad mədəniyyətlərin təsir dairəsinə düşdüyü qənaətinə gətirir. Yaxud Şamaxıda tikilmiş müasir dövrdə yenidən bərpa edilmiş cümə məscidinin illüstrasiyasını şagirdlərə nümayiş etdirməklə o dövrün memarlıq üslubu haqqında şagirdlərdə müəyyən fikir formalaşdırılır. Erkən orta əsrlərdə şərqdə və Qərbi Avropada memarlıq tikililərinin fərqli cəhətlərini şagirdlər müqayisə etmək bacarığı vasitəsilə mənimsəyirlər. Həmçinin müəllim müqayisə cədvəllərindən istifadə edərək sasanilərin və ərəblərin hakimiyyəti dövründə idarəetmə, əhalinin bölgüsü sistemindəki yaxud Azərbaycanda və Qərbi Avropada feodal münasibətlərinin fərqliliklərini, Venn diaqramı vasitəsilə Cavanşir və Babəkin siyasətindəki oxşar və fərqli cəhətləri şagirdlərə mənimsədə bilər. Məsələn müəllim tədris prosesində dərslikdən bir müqayisə cədvəlini lövhədə çəkib göstərərək, Azərbaycanda və Qərbi Avropada feodal münasibətlərinin xüsusiyyətlərini şagirdlərə mənimsədir.

***Azərbaycanda və Qərbi Avropada feodal münasibətləri***

| Azərbaycan | Qərbi Avropa |
|---|---|
| III əsrdən XIX əsrin II yarısına qədər | V əsrdən XVII əsrin ortalarına qədər |
| Kəndlilər feodallardan şəxsən asılı deyildilər. | Kəndlilər təhkimli idi, yəni feodallardan şəxsən asılı idilər. |
| Feodalların xüsusi təsərrüfatı, demək olar ki, yox idi. | Feodalların xüsusi təsərrüfatları var idi. |

Tarix təlimində istifadə olunan əsas metodlardan biri müzakirədir. Dərs prosesində müzakirədən istifadə olunması şagirdlərdə idraki bacarıqların formalaşmasına gətirib çıxarır.

**Məqalənin aktuallığı.** Nəticə olaraq biz Azərbaycanda erkən orta əsrlər dövrünü həm yazılı həm də, maddi mənbələr əsasında tədris edə bilərik. Bu zaman biz dəqiq məlumatlara müraciət etməli, təhrif olunmuş gerçəklikləri şagirdlərə çatdırmalı, düzgün anlayışları mənimsətməli, dövr haqqında dolğun təsəvvür formalaşdırmalı həmçinin tarixin tədrisində ən əlverişli təlim metodlarından istifadə etməliyik. Çünki, ilk məlumat hər zaman şagirdlərin təfəkküründə əsas və təyinedici rola malik olur.

**Məqalənin elmi yeniliyi.** Müzakirə sualı şagirdlərdə təhlil - tərkib kimi idraki bacarıqların formalaşmasına gətirib çıxarır. Həmçinin müzakirə metodundan istifadə bir növ əqli hücum xarakteri daşıyır və qısa zaman ərzində müəllim bütün şagirdlərin fikirləri ilə yaxından tanış olur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Müzakirə zamanı şagirdlər müəyyən dərəcədə sərbəstlik qazanır öz fikirlərini aydın şəkildə ifadə edirlər. Məsələn: Müəllim VII sinifdə Azərbaycan tarixi dərsliyindən “Xürrəmilər hərəkatı” mövzusunu tədris edərkən Babəkin siyasətini əsas götürərək müzakirə sualı ortaya qoyur: Sizin fikrinizcə, Babəkin siyasəti İslam dininə yoxsa ərəb - üsul idarəsinə qarşı çevrilmişdi?

## Ədəbiyyat

1. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün Azərbaycan tarixi dərsliyi. Bakı: Təhsil, 2018, s. 131.
2. Hüseynova L. Bəhrəmova S. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün Azərbaycan tarixi: Metodik vəsait. Bakı; Təhsil, 2018, s. 115.
3. Əmirov M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası: Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti. Bakı, 2011, 707 s.
4. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı: Elm, 2007. 608 s.
5. Əliyarlı S Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Çıraq, 2007, 400 s.
6. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə Bakı: Şərq-Qərb, 2007, 424 s.
7. Qəniyev H. Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək): Ali məktəblər üçün dərslik. Bakı: Elm və Təhsil, 2019, 499 s.

**Л.М. Гасымова**

## Формирование исследовательских навыков у учащихся 7-ых классов при организации работы с историческими источниками “раннее средневековья Азербайджана”

**Резюме**

Научная работа посвящена источникам, их характеристике. Наряду с этим, в работе анализируется ряд научных работ, посвященных проблеме исторических источников, указаны источники, отражающие период Раннего Средневековья. Применены ряд способов и методов традиционного и интерактивного обучения, описаны методы формирования навыков работы учащихся с источниками Раннего Средневековья.

**L.M. Gasimova**

## 7th grade students “Formation of research skills in the organization of work wıth sources of Azerbaıjan early medıveal perıod

**Summary**

The sources and their features are reflected in the scientific work. In addition, a number of scientific works on the problem of historical sources, the names of sources describing the early medieval period are shown. A number of methods and techniques of traditional and interactive teaching have been applied, and ways to develop students’ ability to work with early medieval sources have been described.

**Redaksiyaya daxil olub:** 23.01.2021